KRED

№18 (1148) 10 may 2023-cü il

S.16.

*Heydər ƏLİYEV - 100*

# MÜDRİKLİK MÜCƏSSƏMƏSİ




Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarına əsasən Ulu Öndərin“Müdriklik mücəssəməsi” adlı irihəcmli kitabı “Elm” nəşriyyatı tərəfindənnəfis biçimdənəşr edilmişdir.Əsərin elmi məsləhətçisi və ön sözünün müəllifi akademik İsa Həbibbəyli,- birinci nəşrinin (1999) tərtibçisi professor Vilayət Quliyev, təkmilləşdirilmiş ikinci nəşrinin (2023) tərtibçisi isə filologiya elmləri doktoru, professor Asif Rüstəmlidir.

Topluda Ümummilli Lider Heydər Əliyevin1969-2003-cü illərdə humanitar sahə ilə əlaqədar keçirilən qurultaylarda, konfranslarda, mötəbər məclislərdə, görüşlərdə etdiyi məruzələri, çıxışları, söhbətləri, ədiblərə ünvanladığıtəbrik məktubları, jurnalistlərə verdiyi müsahibələrdörd bölmə üzrə xronoloji ardıcıllıqla yer almışdır.

Nəşrə akademik İsa Həbibbəyli “Heydər Əliyevin dövlətçilik təliminin ədəbiyyat dərsləri” adlı dolğun, səmimi, Ulu Öndərin poeziyaya bağlılığının məhrəm qatlarına işıq salan, onun ədəbiyyat haqqında incələmələrini özündə ehtiva edən geniş və mükəmməl ön söz yazmışdır.

Kitabın ilk və ən iri bölməsində Ümummilli LiderinAzərbaycan Yazıçılar Birliyinin V, VI, VII və X, Türk Dünyası Yazarlarının III qurultaylarında,“Kitabi-Dədə Qorqud”1300, Məhəmməd Füzuli 500, Nəriman Nərimanov 100, Üzeyir Hacıbəyli 110, Cəfər Cabbarlı 80, Süleyman Rüstəm 90, Mirvarid Dilbazi 85, Əliağa Vahid 100,Maqsud İbrahimbəyov 60, Yusif Səmədoğlu 60 və b.yubileytədbirlərində, ədiblərin abidələrinin açılışında söylədiyi nitqlər, məruzələr, çıxışlarbirmənalı olaraq günümüzlə səsləşir,toxunulan problemlər, qabardılan fikir və düşüncələr öz aktuallığını, ədəbi-elmi dəyərini qoruyub saxlayır.

“Müdriklik mücəssəməsi”nin“-Görüşlər, xatirələr” adlı ikinci bölməsi Ulu Öndərinmüstəqil Azərbaycan dövlətinin rəhbərliyinə qayıtdıqdan sonra ilk dəfə 1993-cü ildə Elmlər Akademiyasının binasında ziyalılarla görüşüzamanıölkəmizinqədim və çağdaş tarixi, mürəkkəb və tutqun taleyi, klassiklərə və ədəbi irsə yeni baxış, sovet rejiminin mövcudmühit məcrasında,müstəqillik müstəvisində dəyərləndirilməsi məsələ□ləri barədə etdiyi açıq və səmimi söhbətlər ilə açılır.

Heydər Əliyevin teatr tamaşalarını izlədikdən sonratamaşanın yaradıcı heyətininpeşəkarlığı, sənətkarlıq xüsusiyyətləri, dram əsərinin ideya-bədii və mənəvi-psixoloji məziyyətləri haqqındadəyərləndirmələri xronoloji ardıcıllıqla topluda yer almışdır.Kitabda şairlərə, yazıçılara, söz ustalarına ünvanlanmış təbrik məktubları və xarici jurnalistlərə ədəbiyyatla, mədəniyyətlə bağlı verilmiş müsahibələr də öz əksini tapmışdır.

Akademik İsa Həbibbəyli “Müdriklik mücəssəməsi”nə yazdığı müqəddimədə maraqlı bir məqama diqqəti cəlb edir: “...Görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat haqqındakı fikirləri onun müstəqil dövlətçilik təliminin əsas meyarlarını, vəzifə və məqsədlərini ifadə edən dövlət əhəmiyyətli qənaətlərdən ibarətdir. Ulu öndərin ədəbiyyata dair irsi dahi şəxsiyyətin siyasi fəaliyyətinin qiymətli səhifələrini təşkil edir. Ədəbiyyat haqqındakı fikirləri Heydər Əliyevin dövlət siyasətinin dərsləri və tezisləridir. Heydər Əliyevin ədəbiyyata dair baxışları görkəmli dövlət xadiminin cəmiyyətin inkişafına aid fikirləridir. Buna görədir ki, müstəqil Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyevin dövrün xarici işlər naziri Vilayət Quliyevlə bir söhbətində ədəbiyyat haqqındakı nitqlərinin, yazıçı və şairlərə təbrik məktublarının toplandığı “Ədəbiyyatın yüksək borcu və amalı” kitabındakı zəngin materialları nəzərdə tutaraq dediyi “deyəsən, sovet vaxtı mən partiya-təsərrüfat işindən çox, ədəbiyyat məsələləri ilə məşğul olmuşam” - sözləri onun ədəbiyyat işinə dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən biri kimi verdiyi yüksək qiymətin obyektiv ifadəsidir”.

H.Ə.Əliyevin “Müdriklik mücəssəməsi” adlı seçilmiş əsərləri humanitar və ictimai elmlər sahəsində çalışan ədəbiyyat, təhsil, mədəniyyət və incəsənət işçiləri üçün mükəmməl elmi-metodoloji vəsait, dəyərli töhfədir.



*Gülnar SƏMA,*
*Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutu*
*İctimaiyyətlə əlaqələr şöbəsi*